# MÜƏLLİMİN DƏRSƏ HAZIRLAŞMASI

**MƏRDAN MURADXANOV**
Pedaqoji elmlər namizədi

Təlim-tərbiyə işlərinin əsas təşkilat forması olmaq üzrə dərs müəllimin şagirdlərlə apardığı işlərin mərkəzində durur. Tərbiyənin məqsəd və vəzifələri başlıca olaraq dərsdə həyata keçirilir. Dövlət tərəfindən təsdiq olunmuş proqram, əsasən, dərs vasitəsilə şagirdlərə mənimsədilir. Dərsdə eyni zamanda şagirdlərin əxlaqi tərbiyəsi həyata keçirilir; zira hər dərs öz məzmunu və məfkurəvi istiqamətilə şagirdlərdə ümumi dünyagörüşünün təşəkkülünə xidmət edir.

**To cite this article:** Muradkhanov M. (1950). The teacher's preparatıon for the lesson. *Azerbaijan Journal of Educational Studies.* Issue I–III. pp. 24–33
DOI: 10.30546/32898065.2024.3.038

Beləliklə şagirdlərin təlim və tərbiyə sahəsindəki müvəffəqiyyətləri əsas etibarilə dərsin yüksək keyfiyyətdə keçməsindən asılıdır. Dərsin yüksək keyfiyyətdə keçməsi isə müəllimin ona nə dərəcədə yaxşı hazırlaşması və onu düzgün planlaşdırmasından asılıdır.

Müəllimin dərslərə hazırlaşması əsasən üç dövrdən ibarətdir; bütün proqram üzrə hazırlıq, proqram bəhsləri üzrə hazırlıq və bir dərsə hazırlıq.

**1. Bütün proqram üzrə hazırlıq.** Bu hazırlıq hələ tədris ilinin başlanğıcından çox-çox əvvəl, yay tətili vaxtları başlanır və bütün il ərzində davam edir. Adətən, müəllim yay məzuniyyətinə çıxmazdan qabaq yeni tədris ilində hansı sinifdə, hansı dərsləri aparacağını bilir. Məzuniyyət

vaxtı müəllim deyəcəyi fənlərin proqram və tədris kitablarını bir daha nəzərdən keçirir, proqram və tədris kitablarında dəyişikliklər edilmişsə, onlara xüsusi fikir verir, bu dəyişikliklərin mahiyyətini və nə üçün edildiyini aydınlaşdırır. Sonra, müəllim tədris edəcəyi fənnə dair oxumadığı yeni elmi ədəbiyyatla və eləcə də həmin fənnin tədrisinə aid metodik ədəbiyyatla yaxından tanış olur, oxuduğu materiallar içərisindən, dərs zamanı ona lazım olacaq məlumatın, dəlillərin, sitatların üzünü köçürür, qəzetdən lazımi parçalar kəsib toplayır. Daha sonra, öz fənninə aid bəzi əyani vasitələr (yarpaqlar, toxumlar, böcəklər, süxurlar, xəritələr, şəkillər və s.) toplayır, mövcud əyani vasitələri səliqəyə salır.

Bütün bunlar müəllimin öz siyasi-məfkurəvi səviyyəsini yüksəltmək üçün gördüyü işlərlə yanaşı gedir.

Bütün proqram üzrə hazırlaşmaq nəticəsində müəllim təqvim planı tərtib edir.

Təqvim planı, məlum olduğu üzrə rüb müddətinə tərtib edilir. Bu təqvim planda 4 qrafa olur: birinci qrafada proqramın ayrı-ayrı bəhsləri və yarım bəhsləri ardıcıl surətdə qeyd olunur, ikinci qrafada hər bəhs və yarım bəhs üçün ayrılacaq saatların miqdarı yazılır, üçüncü qrafada hər bir proqram bəhsi və yarım bəhsinin hansı tarixlərdə (ayın neçəsi ilə neçəsi arasında) keçiləcəyi qeyd olunur, nəhayət sonuncu qrafada planın yerinə yetirilməsi haqqında qeyd aparılır.

Proqram bəhslərinin iri-xırdalığından asılı olaraq rüblük planda bəzən isə daha çox proqram bəhsi yazılır. Məsələn, ana dili proqramı üzrə V sinifdə "İsim" bəhsinə 38 saat, "Sifət" bəhsinə 28 saat, "Əvəzlik" bəhsinə 30 saat və s. verilmişdir. VI sinifdə "Qoşmalar" bəhsinə 6 saat, "Bağlayıcılar" ya 6 saat, "Nida"ya 6 saat ayrılmışdır. Məlumdur ki, hər bəhsə 38 və 28 saat ayrılanda təqvim planında az proqram bəhsi, 4-6 saat ayrılanda çox proqram bəhsi düşəcəkdir.

Təqvim planını tərtib edərkən hər proqramın özündə bəhslər üzrə saatların göstərilməsi müəllimlərə çox kömək edir. Lakin unutmaq olmaz ki, proqramda bəhslər üzrə qeyd edilmiş saatlar təxminidir. Hər müəllim həmin sinifdə proqramın keçmiş bəhslərinin nə dərəcədə keçilməsindən, şagirdlər tərəfindən nə dərəcədə mənimsənmiş olmasından, proqramda nəzərə alına bilməyən, lakin konkret sinifdə özünü göstərən xüsusiyyətlərdən asılı olaraq bu saatlarda dəyişiklik aparıla bilər. Hərgah bu dəyişikliklər çox böyükdürsə, qabaqca məktəb direktoru (müdiri) və müfəttişilə razılaşmaq lazımdır.

Təqvim planında rüblük materialın təkrar edilməsini və şagirdlərin biliyinə qiymət qoymaq üçün kontrol yazı işlərinin aparılmasını nəzərdə tutmaq lazımdır.

Rüblük planlar rübün başlanmasına 5-6 gün qalmış məktəb direktorunun (müdirinin) təsdiqinə verilməlidir.

**2. Proqram bəhsləri üzrə hazırlıq.** Biz yuxarıda hər bir rüblük təqvim planında 4-5, bəzən isə daha çox proqram bəhsləri olduğunu qeyd etdik. Proqram bəhsi üzrə hazırlaşmaq hər bir bəhsi dərslərə parçalamaq və hər dərsin mövzusunu müəyyən etmək deməkdir.

Proqram bəhsinə ayrılmış olan çoxlu saatı tək-tək dərs mövzularına ayırarkən müəllim nəyə əsaslanmalıdır? Bir çox rayonlarda pedaqoji kabinələr proqram bəhslərini saatlara bölüb müəllimlərə hazır şəkildə verirlər. Bəzi rayonlarda bunu etməyərək müəllimlərə bu məsələdə sərbəstlik verirlər. Pedaqoji kabinə saatları hazır halda versə də bu nümunəvi bölgüdür. Müəllim bu bölgünü öz sinfinin xüsusiyyətinə uyğunlaşdırmalıdır.

Müəllim bir saatlıq dərsin mövzusunu müəyyən edərkən onun az-çox bütöv bir məlumatı əhatə etməsini nəzərdə tutmalıdır. Bu bütövlük həm didaktik cəhətdən, həm də məntiqi cəhətdən olmalıdır. Yəni dərs əvvələn – müəyyən didaktik vəzifəni həll etməlidir (ya yeni bilik verməli, ya biliyi möhkəmləndirməli və s.) və ikincisi – bir saat içərisində veriləcək məlumat nisbətən tamam olmalıdır. İbtidai və orta məktəbdə dərsi məntiqi cəhətdən yarımçıq qoymaq olmaz. Məsələn, ədəbiyyatdan yazıçının tərcümeyihalını bir dərsdə bitirmək mümkün deyildirsə, onu az-çox tamamlanmış yerdə bitirmək lazımdır. Çalışmaq lazımdır ki, dərsdə iştirak edəndən sonra şagirdlərdə keçilən dərs haqqında müəyyən tam təsəvvür əmələ gəlsin.

Proqram bəhsinə ayrılmış olan saatları tək-tək dərslərə ayırarkən müəllim onların hamısını yeni dərslərə verməməli, biliyi möhkəmlətmək, hesaba almaq zəruriyyətini nəzərə alaraq həmin bəhs üzrə lazım olan ekskursiya, əməli məşğələ, təmrin, təkrar, yazılı kontrol işləri üçün də dərslər ayrılmalıdır. Bundan sonra müəllim cədvəl üzrə hər dərsin hansı tarixdə keçiləcəyini müəyyən edir. Beləliklə proqram bəhslərini dərslərə bölmək nəticəsində müəllim həmin bəhs üzrə ayın neçəsində, hansı mövzunu keçəcəyini, nə zaman təkrar, ekskursiya, kontrol iş və s. aparacağını müəyyən edir.

Müəllim dərslərin bu cür bölgüsünü heç bir rəsmi sənəddə qeyd edib bir yerə təqdim etmir. O bu işləri ancaq dərsə hazırlaşmaq prosesində özü üçün bir material kimi qeyd edir.

**3. Hər bir növbəti dərsə hazırlıq.** Bəzi stajlı müəllimlər öz çoxillik təcrübələrinə güvənərək, hər gün növbəti dərsə hazırlaşmağı artıq bir şey hesab edir, xüsusən gündəlik dərs planının tərtibinə formal bir məsələ kimi baxırlar. Belə bir fikir qətiyyən düzgün deyildir. Qabaqcıl müəllimlərin iş təcrübəsi göstərir ki, məhz hər günkü dərslərə diqqətlə hazırlaşmaq onların müvəffəqiyyət qazanmasında çox böyük rol oynamışdır və buna görə də onlar öz pedaqoji məharətlərinə baxmayaraq, gündəlik dərslərinə diqqətlə hazırlaşmaqda davam edirlər. Başqa cür ola da bilməz. Əvvələn – proqram və dərsliklər dəyişir; müəllim bu dəyişiklikləri nəzərə almaya bilməz. İkincisi – elmin özündə, onun sıx surətdə əlaqədar olduğu mühitdə böyük dəyişikliklər, yeniliklər əmələ gəlir; müəllim bütün bu dəyişiklikləri öz dərslərində əks etdirməyə bilməz. Üçüncüsü – hər il sinifdə şagirdlərin tərkibi dəyişir, keçən ilki şagirdlər bu ilkilərə oxşamır, bu ilkilər isə gələn ilkilərə oxşamayacaqlar. Hər sinif kollektivinin özünün xüsusiyyətləri olduğu kimi, hər şagirdin də özünəməxsus fərdi xüsusiyyətləri vardır. Dərsə hazırlaşarkən və onu keçərkən müəllim bütün bu xüsusiyyətləri nəzərdə tutmaya bilməz. Nəhayət, dördüncüsü – müəllim özü də ildən-ilə inkişaf edir, yeni ədəbiyyat oxuyur, yeni təcrübə qazanır. Bu da yenə müəllimin dərslərə hazırlaşmasına təsir edir.

Bütün bu dediklərimizdən aydın olur ki, istər təcrübəli və istərsə təcrübəsiz müəllim, hər bir dərsə diqqətlə hazırlaşmalıdır.

Növbəti dərsə hazırlaşmaq üçün müəllim hər şeydən əvvəl dərsdə görüləcək işin məzmununu özünə aydınlaşdırmalı və onun həcmini müəyyən etməlidir. Dərsin məzmunu müxtəlif olduğu kimi, müəllimin bu tanışlıq işi də çox müxtəlif olur. Hərgah müəllim dərsdə yeni bilik verəcəksə, proqramda və tədris kitabında bu barədə yazılanlarla tanış olur, bir saat içərisində hansı məsələləri əhatə edəcəyini, hansı məsələlər üzərində xüsusi dayanacağını müəyyən edir. Növbəti dərsdə məsələ həll olunacaqsa, müəllim qabaqca həll olunacaq məsələləri müəyyən edir. Əgər müəllim dərsdə təcrübə göstərəcəksə bunu özü qabaqca icra edir və s.

Dərsin məzmununun həcmini müəyyən edərkən müəllim 45 dəqiqəlik dərsin içərisinə keçən dərsi soruşmaq və yeni dərsi möhkəmlətməyin də daxil olduğunu nəzərdə tutmalıdır (bu dərsin tipindən çox asılıdır). Adətən gənc müəllimlər dərsdə yeni məzmunun həcmini müəyyən etməkdə çətinlik çəkirlər. Bəziləri materialı az müəyyənləşdirir və zəng vurulana kimi özünə iş tapmayıb məqsədsiz işlər görür; bəziləri isə dərsin məzmununa çoxlu məsələlər daxil edib zəngə kimi dərsi tamamlaya bilmir; yeni bilik natamam qalmaqdan başqa, tapşırıq da zəng vurulandan sonra tələsik verilir. Dərs üçün materialı tələsmədən, əsaslı surətdə şagirdlərə başa sala biləcək qədər seçmək lazımdır. Lakin ehtiyat üçün əlavə material da hazırlamaq lazımdır ki, vaxt artıq qalsa, keçilsin. Şübhəsiz, veriləcək dərsin məzmunu ilə tanış olarkən müəllim şagirdlər üçün yazılmış tədris kitabındakı materialla qətiyyən kifayətlənə bilməz, o, ali məktəbdə həmin mövzu üzrə keçdiyi biliyi xatırlamalı, əlavə ədəbiyyatı nəzərdən keçirməlidir.

Dərsin məzmunu üzərində işləyərkən müəllim tərbiyələndirici təlim prinsipini rəhbər tutmalı və bu məzmunun şagirdlərdə kommunist əxlaqı sifətləri tərbiyə etməsinə çalışmalıdır. Dərsə ayrı-ayrı “tərbiyəvi momentlər” daxil etmək deyil, məhz dərsin bütün məzmununun siyasi-məfkurəvi istiqaməti ilə bu prinsipi həyata keçirmək lazımdır.

Dərsə hazırlıqla əlaqədar olaraq, müəllim dərsdə istifadə edəcəyi düsturlar, tarixlər, təriflər, qanunlar, adlar və s.-ni çox aydın təsəvvür etməli və əzbərdən bilməlidir. Hərgah uşaqlara əzbərləmək üçün şeir vermişsə müəllim özü də bunu əzbər öyrənməlidir.

Dərsin məzmunu ilə bərabər, onu şagirdlərə necə mənimsətmək yolları, yəni metodikası üzərində də düşünmək lazımdır. Hərgah material sinifdə nağıl etmək yolu ilə keçiləcəksə, dərsə hazırlaşmaq prosesində müəllim hansı ardıcıllıqla danışacağını (nağıl etmənin planı), hansı misallar çəkəcəyini, hansı nəticələr çıxaracağını, nağıl etdikdən sonra şagirdlərə hansı suallar verəcəyini müəyyən etməlidir.

Hərgah material sinifdə şagirdlər tərəfindən oxunacaqsa, müəllim onu hansı hissələrə böləcəyi, hansı çətin sözləri izah edəcəyi, hansı suallar üzrə oxunan parça haqqında müsahibə aparacağı üzərində düşünməlidir. Əgər sinifdə əyani vasitədən istifadə ediləcəksə, bunun nə zaman, dərsin hansı hissəsində şagirdlərə göstəriləcəyini müəyyənləşdirmək lazımdır.

Dərsin didaktik məqsədi (yeni bilik vermək, biliyi möhkəmlətmək, uşaqların biliyini hesaba almaq və s.) onun tipini müəyyən edir: dərs yeni bilik verən, ya bilik möhkəmlədən, ya şagirdlərin biliyini hesaba alan və ya da 2-3 didaktik məqsəd daşıyaraq mürəkkəb dərs tipi adını daşıyır. Hər bir dərs tipindən, məzmunundan, işlədilən üsullardan, əyani vəsaitdən və s.-dən asılı olaraq müxtəlif mərhələlərdən ibarət olur. Dərsin mərhələləri dedikdə – dərsin birinci dəqiqəsindən tutmuş sonuncu dəqiqəsinə qədər sinfin (müəllim və şagirdlərin) keçirdiyi ardıcıl müxtəlif fəaliyyət növləri nəzərdə tutulur. Məsələn, yeni bilik verən dərsdə adətən aşağıdakı mərhələlər olur: evə verilmiş tapşırığın yoxlanması, keçmiş dərslə yeni dərs arasında əlaqə, yeni dərsin verilişi, yeni dərsin möhkəmləndirilməsi, dərsə yekun vurulması və evə tapşırıq verilməsi. Bu mərhələlər dərsin məzmunu və quruluşundan asılı olaraq artırılıb əksildilə bilər. Bizim müşahidə etdiyimiz dərslərin bəzisində bu mərhələlər beş, bəzisində yeddi, bəzisində isə doqquza qaldırılmışdır. Bilik və vərdişləri möhkəmlətmək dərsləri adətən evə verilmiş tapşırığın yoxlanması, təkrar ediləcək mövzunun söylənməsi və məqsədin elan edilməsi, biliyin möhkəmləndirilməsi üzrə təkrar və təmrinlərin aparılması, dərsə yekun vurulması, evə tapşırıq verilməsi kimi mərhələlərdən təşəkkül edir. Bilik və vərdişləri möhkəmlətmə üsullarından asılı olaraq bu dərs tipinin də mərhələləri dəyişə bilər. Məsələn, misal həlli əsasında biliyin möhkəmləndirilməsi üçün tamamilə başqa növ işlər aparılır. Ona görə bütün siniflər, bütün fənlər, proqramın bütün bəhsləri və hər bir dərs tipi üçün eyni dərəcədə tətbiq edilən standart mərhələlər müəyyən etmək olmaz. Konkret dərsə hazırlaşarkən müəllim sinfi, fənni, mövzunu, əyani vəsaiti və s. məsələləri nəzərə alaraq dərsin gedişini aydın təsəvvür etməli, yəni onun ayrı-ayrı mərhələlərini və hər bir mərhələdə görüləcək işləri müəyyənləşdirməlidir.

Dərsə hazırlıq işlərində müəllim bütün didaktik prinsiplərin tətbiqini təmin etməlidir. Müəllim dərsin əyani olması üçün tətbiq ediləcək əyani vəsaitin əvvəlcədən hazırlanmasına çalışmalıdır.

Qabaqcıl müəllimlər məhz belə edir, əyani vəsaiti dərsdən çox-çox əvvəl tapıb hazırlayır və yaxud bunun şagirdlər tərəfindən hazırlanmasına səy edirlər. Bəzi müəllimlər dərs üçün bir çox sxemalar, cədvəllər çəkib hazırlayır və ya şagirdlərə çəkdirirlər. Beləliklə hər bir növbəti dərsə hazırlaşmaq prosesində qabaqcıl müəllimlər eyni zamanda ümumiyyətlə məktəbin əyani vəsaitlə təchiz olunmasında bilavasitə iştirak edirlər.

Dərsdə fərdi yanaşma prinsipinin təmin olunmasına gəldikdə, müəllim dərsə hazırlaşarkən ayrı-ayrı şagirdlərin xüsusiyyətlərini nəzərə almalı, onlara nə kimi suallar və yaxud hansı tapşırıqlar verəcəyini qabaqcadan müəyyən etməlidir.

Nəhayət, dərsə hazırlaşarkən müəllim ev tapşırıqlarına da fikir verməli, tapşırıqların həcmini və məzmununu qabaqcadan müəyyən etməlidir.

Dərsə bu cür hazırlaşdıqdan sonra dərsin planı tutulur.

Gündəlik dərs planı, əsasən, iki məqsəd daşımalıdır. Əvvələn, dərs planının tərtibi gələcək dərsin gedişi üzərində müəllimi ətraflı düşündürməli, yəni müəllimin dərsə hazırlıqlı gəlməsini təmin etməlidir. İkincisi, plan dərsin məntiqi ardıcıllıqla qurulmasında müəllimə yardım etməlidir. Bunlardan əlavə plan bir də kontrol məqsədləri üçün lazımdır. Bu məqsədləri təmin etmək üçün plan hər şeydən əvvəl konkret olmalıdır. Daha doğrusu, plan elə tərtib olunmalıdır ki, onunla başqa dərs keçmək mümkün olmasın, ancaq müəyyən sinifdə, müəyyən edilmiş mövzu üzrə dərs keçilə bilsin.

Biz metodik tələblərə nə dərəcədə cavab verməsi nöqteyi-nəzərincə onlarca dərs planı ilə tanış olduq. Bu planlar içərisində metodik cəhətdən düzgün tərtib olunmuş, dərsin əsas məzmun və quruluşunu yaxşı əks etdirən planlar az deyildir. Budur, 199 nömrəli məktəbin müəlliməsi Nərgiz Bakıxanovanın "5 rəqəminin öyrədilməsi" haqqındakı dərs planı. Burada məqsəd aydın göstərilmiş, dərsin planı mərhələlər üzrə yazılmış, hər mərhələdə müəllimənin görəcəyi iş konkretləşdirilmiş, ev tapşırığı müəyyən edilmişdir. Planda nə kimi məsələlərin təkrar ediləcəyi, yazı taxtasında yazılacağı və uşaq dəftərlərinə köçürüləcəyi müəyyənləşdirilmişdir.

Həmin məktəbin müəllimlərindən M.Səfərov, X.Bədəlbəyli, Əbdürrəhmanova və Ə.Quluyevin də planı yuxarıda göstərdiyimiz müsbət əlamətlərə malikdir.

132 nömrəli orta məktəbin müəlliməsi Bilqeyis Məmmədovanın "Koroğlu dastanı" mövzusunda dərs planı da didaktik tələblərə cavab verir. Planı oxuduqda müəllimənin keçən dərs üzrə ("Dədə Qorqud dastanı") şagirdlərdən nəyi soruşacağı, hansı cəhətlərə xüsusi diqqət etdirəcəyi, yeni dərsi ("Koroğlu dastanı" mövzusunu) hansı plan üzrə şərh edəcəyi, hansı nəticələri çıxaracağı və nəhayət evə nə kimi konkret tapşırıq verəcəyi aydın olur.

Belə yaxşı planlar bizim məktəblərimizdə az deyildir. Lakin bununla yanaşı olaraq metodik tələblərə cavab vermədən, dərsin gedişini dəqiq əks etdirməyən və bəzən başdansovma tərtib edilən planlara da təsadüf edilir. Budur, 132 nömrəli məktəbin müəlliməsi F.Ağayevanın coğrafiya dərsi üzrə tərtib etdiyi plan. Bu planda hər şey ümumi yazılmışdır və heç bir şey konkretləşdirilməmişdir. Dərsin mövzusu plandan silinərsə, bu plan bütün fənlərə və bütün siniflərdə keçilən dərslərə aid ola bilər. Planda müəllimənin keçmiş dərsi təkrar edəcəyi qeyd olunmuş, lakin hansı əsas məsələlərə toxunacağı yazılmamışdır. Yeni mövzu üzərində müsahibə edəcəyi iki-üç kəlmə ilə qeyd edilmiş, lakin bu müsahibənin əsas məzmununu əks etdirən heç olmasa, bir neçə maddə yazılmamışdır. Yeni keçilən dərsin möhkəmləndirilməsi qeyd edilmiş, lakin bunun hansı üsullarla həyata keçirilməsi göstərilməmişdir. Planda köhnə dərsin və yeni dərsin hansı şagirdlərdən soruşulacağı haqqında da heç bir qeyd yoxdur.

190 nömrəli məktəbin ədəbiyyat müəllimi A.Bədəlov "Dağılan tifaq" faciəsi mövzusunda dərs üçün iki səhifəlik plan tərtib etmiş, lakin bu planda dərsin məzmunu göstərilməmişdir. Məsələn, müəllim planın üçüncü bəndində "Haqverdiyevin "Dağılan tifaq" əsəri üzrə 15-20 dəqiqəlik müsahibə aparıram" sözlərini yazmış, lakin müsahibənin əsas məzmununu əks etdirməmişdir. 5-ci bəndində "Yeni dərsin suallarla yekunlaşdırılması" sözlərini yazmış, lakin uşaqlara verəcəyi sualların heç olmazsa bir neçəsini qeyd etməmişdir.

Bu müəllimlərin planında məhz yuxarıda qeyd etdiyimiz konkretlik tələbinə riayət edilməmişdir. Həmin müəllimlər dərsin mövzu və məqsədini təyin etdikdən sonra dərsin quruluşunu (mərhələlərini) əks etdirən standart sözlər qeyd edirlər: "Keçən dərsin yoxlanması", "Yeni dərslə köhnə dərs arasında əlaqə yaratmaq", "Yeni dərsin izahı", "Yeni dərsin sual-cavabla möhkəmləndirilməsi", "Ev tapşırığının verilməsi". Bu, elə bir qəlibdir ki, bunu hər fənn üzrə olan yeni dərsə tətbiq etmək olar. Lakin bu, müəllimi qarşıdakı dərsə hazırlaşmaq üçün təhrik etməz. Bu maddələr dərsin planı deyil, sxemasıdır.

Biz burada bütün fənlər üzrə və bütün siniflərdə tətbiq oluna bilən dərs planı haqqında konkret göstəriş vermək istəmirik. Belə bir dərs planı təklif etmək də mümkün deyil və

hətta zərərlidir. Dərs planını tərtib etməkdə müəllimə müəyyən sərbəstlik verilməlidir. Plan dərsin mövzusu, məqsədi, lazımi əyani vəsaitin olub-olmaması, şagirdlərin həmin dərsi qazanmaq üçün hazırlıq dərəcəsi, onların yaş xüsusiyyətləri və s.-dən asılı olaraq dəyişir və dəyişməlidir. Biz burada ancaq yeni bilik verən dərsin tipik planını tərtib etmək haqqında bəzi məsləhətlər verməklə müəllimlərə bu məsələdə kömək etmək istəyirik.

Planda günün tarixi və dərsin mövzusu yazıldıqdan sonra dərsin məqsədi qeyd edilir. Bizim nəzərdən keçirdiyimiz planların bəzilərində müəllimlər bu məqsədi qeyd etməmişlər. Bəziləri isə dərsin məqsədini qeyd edərkən mövzunu sadəcə olaraq mənimsətməyi bir məqsəd kimi yazmaqla kifayətlənmişlər. Dərsin məqsədini düzgün təyin etmək müəllimin gələcək işini müəyyən etdiyindən bunu bir qədər aydınlaşdırmağa çalışaq.

Dərsdə təlim və tərbiyə məqsədləri olur. Təlim məqsədləri dərsin mövzusu və məzmunu ilə əlaqədar olaraq çox müxtəlif olur: şagirdlərə bu və ya başqa qayda, qanun, tarixi dövr, bədii əsər və s. haqqında anlayış vermək, təsəvvür oyatmaq (məsələn, əvəzlik haqqında ilk anlayış vermək və ya bu anlayış və təsəvvürü dərinləşdirmək, dəqiqləşdirmək), yaxud keçilmiş qayda və ya qanunun tətbiqini öyrətmək, vərdişləri möhkəmlətmək, yeni bacarıq vermək, mövcud bacarığı möhkəmlətmək (məsələn, imla dərsində idarə, müəssisə və təşkilat adlarını yazmağı bacarmaq). Təmrin və təkrar vasitəsilə şagirdlərdə ayrı-ayrı bilik, bacarıq və vərdişləri təkmilləşdirmək (məsələn, şagirdlərin xəritədən istifadə etmək bacarığını inkişaf etdirmək) və yaxud şagirdlərin bilik, vərdiş və bacarıqlarını yoxlamaq, onlara qiymət vermək və s. və i.a. Müəllim bu qeyd etdiyimiz məqsədlərdən hansını nəzərdə tutmuşsa onu dərsin məqsədi kimi planda yazmalıdır.

Tərbiyə məqsədləri haqqında biz yuxarıda bəhs etdik. Dərs planında yenə dərsin məzmunu ilə sıx əlaqədar olaraq uşaqlarda vətənpərvərlik, milli iftixar hissi, əməyə, ictimai mülkiyyətə humanist münasibət, yoldaşlıq, dostluq, doğruçuluq, mətin iradə, mərdlik və s. sifətlərin tərbiyə olunması nəzərdə tutulursa, dərsin məqsədi olaraq qeyd edilir. Daha sonra dərsin məzmunu və üsulu ilə əlaqədar olaraq hansı psixoloji qabiliyyətlərin – müşahidəçilik, diqqət, təfəkkür və s. inkişaf etdirilməsi nəzərdə tutulduğu məqsəddə qeyd olunur.

Mövzudan asılı olaraq bir çox dərslər bu iki növ məqsədin hər ikisini, həm təhsil, həm də tərbiyə məqsədini güdür. Müəllim gələcək dərsdə tərtib edəcəyi məqsədi qabaqcadan aydınlaşdırmaq və plana qeyd etməklə öz işinin əsas istiqamətini müəyyənləşdirir. Məqsəd aydınlığı dərsdə kənar məsələlərə yayınmamaq və qoyulmuş məqsədi ardıcıl surətdə izləmək üçün müəllimə imkan verir.

Dərsin məqsədindən sonra nəzərdən keçirdiyimiz planlarda bəzi müəllimlər dərsdə tətbiq olunan üsulları yazırlar və adətən burada iki üsulu (müsahibə və izahatı) qeyd edirlər. Üsulların xüsusi surətdə qeyd edilməsi əməli əhəmiyyətə malik olmur, həqiqəti əks etdirmir və bu zaman müəllimin dərsdə işlətdiyi bəzi üsullar (illustrasiya, demonstrasiya, təmrinlər, kitab üzərində iş) qeyd edilməmiş qalır. Üsulların xüsusi qeyd edilməsi lazım deyildir. Bunlar dərsin gedişində (mərhələlərində) ifadə edilməlidir. Çünki hər mərhələdə ayrı bir üsul işlətmək lazım gəlir.

Dərsin məqsədindən sonra planda dərsin gedişi qeyd olunmalıdır. Bu, planın əsas hissəsidir. Bu hissədə dərsin birinci dəqiqəsindən başlamış sonuncu dəqiqəsinə qədər keçilən bütün mərhələlər əks olunur və hər mərhələdə görülən iş qeyd edilir. Bu hissəni müəllim elə qeyd etməlidir ki, onun işinin həm məzmunu və həm də üsulu aydın olsun. Bu mərhələlər, yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif məsələlərdən asılı olaraq fərqli olur.

Biz yeni bilik verən dərs tipini nümunə götürdüyümüzdən burada belə dərsin gedişini mərhələlər üzrə planda necə qeyd etmək lazım olduğundan danışacağıq.

Belə dərs adətən, keçən dərsdə verilən tapşırığın yoxlanması ilə başlayır. Keçmiş dərsdə verilmiş tapşırığın soruşulması mərhələsində hansı mövzunun soruşulacağı və hansı üsulla (sual-cavabla, iki-üç şagirddən dərsi soruşmaq

yolu ilə, əzbərdən, şəkil üzrə və s.) soruşulacağını qeyd edirlər. Bu, çox yaxşıdır. Çünki bu zaman müəllimin dərsləri soruşmasında müəyyən plan və məqsəd olur.

Dərsin yeni dərslə keçmiş dərs arasındakı əlaqəyə aid mərhələsində müəllim bu əlaqəni necə yaradacağını qeyd etməlidir. Bu məqsədlə müəllim sual-cavabdan, şəkildən, giriş müsahibəsindən və s.-dən istifadə edə bilər. Nəzərdə tutulan əlaqənin məzmunu da bir-iki cümlə ilə qeyd edilməlidir.

Yeni biliyin verilməsi mərhələsində müəllim öz izahının başlıca planını qeyd etməlidir. Bu plan 5-6 maddədən ibarət olsa kifayətdir. Bu maddələri qeyd etməklə müəllim öz gələcək izahatını nizama salır, onun ardıcıllığını müəyyən edir, o biri tərəfdən dərsdə verəcəyi izahatın çərçivəsini az-çox müəyyən edir.

Yeni biliyin möhkəmləndirilməsi mərhələsində müəllim bunu hansı üsulla (sual-cavabla, təcrübəni təkrar etmək vasitəsilə, bir neçə şagirdə oxutmaq vasitəsilə və s.) aparacağını qeyd etməlidir.

Dərsə yekun vurmaq bölgüsündə dərsdən çıxarılan əsas nəticə qeyd edilməlidir.

Evə verilən tapşırıq bölgüsündə tapşırığın məzmunu və necə öyrənilməsi (nağıl etmək yolu ilə öyrənmək, əzbərləmək, şəkil çəkmək, plan tərtib etmək və s.) qeyd olunmalıdır.

Yuxarıda qeyd etdiyimiz bölgülərdən əlavə olaraq bəzi planlarda "dərsin təchizatı" bölgüsünə də təsadüf edilir. Bunu həm ayrı qeyd etmək, həm də dərsin quruluşuna daxil etmək olar.

Bəzi müəllimlər dərsin hər mərhələsinin yanında ona sərf ediləcək dəqiqələri qeyd etməyi lazım bilirlər. Yeni işə başlayan gənc müəllimlər üçün bunun əhəmiyyəti vardır. Onlar bu yolla sinifdə öz işlərini qabaqcadan müəyyən etdikləri vaxtlar üzrə bölüşdürüb aparır və dərsin yarımçıq qalmasının qarşısını alırlar.

Yuxarıda qeyd etdiyimiz tələblərə uyğun qurulmuş dərs planlarından dörd nümunə verməklə bu tələblərin konkret olaraq necə ifadə olunmasını göstəririk.

### 1949-cu il sentyabrın 16-da Nərgiz Bakıxanovanın (Bakı, 199 nömrəli məktəb) I sinifdə hesabdan keçdiyi dərsin planı

***Mövzu:*** 5 rəqəmi.

***Məqsəd:*** 5 rəqəminin yazılışını öyrətmək.

***Təchizat:*** hesab çotkası, çöplər, kəsmə rəqəmlər.

***Dərsin gedişi:***

1. Keçmiş dərsin yoxlanması: a) 9.... dəftərlərində bir xətt 4 rəqəminin yazılışını yoxlamaq; b) 10-a qədər düzünə və tərsinə saydırmaq; c) 4 rəqəminin uşaqlar tərəfindən yazı taxtasında yazılması.

2. Yeni biliyin öyrədilməsi: a) 5-ə qədər şifahi olaraq əyani vasitə üzərində 4-5 uşağa saydırmaq; b) kəsmə rəqəmdən 5-in yazılışını uşaqlara göstərmək; v) 5 rəqəminin müəllimə tərəfindən yazı taxtasında yazılması.

3. Yeni dərsin möhkəmləndirilməsi: 5 rəqəminin uşaqlar tərəfindən sinif dəftərlərində iki xətt yazılması. Yazılanların müəllimə tərəfindən bütün sinif üzrə yoxlanması.

4. Evə tapşırıq: 5 rəqəmini iki xətt yazmaq.

### 1950-ci il fevralın 20-də Bilqeyis Məmmədovanın (Bakı, 132 nömrəli məktəb) X sinifdə ədəbiyyatdan keçdiyi dərsin planı

***Mövzu:*** S.Rüstəmin "Yaxşı yoldaş" poemasının təhlili.

***Məqsəd:*** a) S.Rüstəmin sənətkarlığı ilə tanışlıq; b) şagirdlərdə vətənpərvərlik və beynəlmiləlçilik hissini, əməyə sevgini möhkəmlətmək, ümumi işi şəxsi işdən üstün tutmağın nəcib əxlaqi sifət olduğunu şagirdlərin diqqətinə xüsusi çatdırmaq.

***Dərsin gedişi:***

1. Keçmiş dərsin yoxlanması.

a) Ş.Rzayeva və R.Məmmədova "Ana və poçtalyon" şeirini əzbərdən söylətmək;

b) Suallar vasitəsilə ana surətinin, ananın mənəvi təmizliyi, övlada olan məhəbbətini şeirdə necə ifadə olunmasını aydınlaşdırmaq.

2. Yeni mövzu üzrə müsahibə: Evdə oxuyub

tanış olduqları "Yaxşı yoldaş" poemasının şagirdlər tərəfindən necə başa düşüldüyünü aydınlaşdırmaq məqsədilə aşağıdakı suallar verilir:

a) Poemada hansı dövr təsvir olunur?

b) Yazıçı Cənubi Azərbaycanla Sovet Azərbaycanı arasında necə müqayisə aparır?

q) Şəxsi işi ictimai işdən üstün tutanlara qarşı sovet adamlarının münasibəti.

v) Niyazda dönüşün əmələ gəlməsinə səbəb olan nə idi?

e) Gülxanımın Niyaza olan münasibəti.

ə) Əsərdə Nina surəti ilə şair nəyi göstərmək istəyir?

3. Müəllimin izahı: "Yaxşı yoldaş" poeması təhlil edilərək, bu məsələlərə toxunulur: əsərin xitabla başlanması, iki ölkənin müqayisəsi: Cənubi Azərbaycanda əhalinin acınacaqlı vəziyyəti, Sovet Azərbaycanında isə əhalinin xoşbəxt həyatı və azad əməyi. Pambıq tarlalarında sovet adamlarının yüksək məhsul uğrunda mübarizəsi, qəhrəmanların yarışı (Bütün bunlar poemadan gətirilən ayrı-ayrı misralarla izah olunur). Əsərdə Niyaz və Gülxanım surətləri. Niyazın şüurunda kapitalizm qalıqlarının ifadəsi və buna qarşı yoldaşlarının mənfi münasibəti. İş yoldaşlarının və Gülxanımın yoldaşlıq təsiri ilə Niyazın psixolojisinin dəyişməsi. Nina surəti, xalqlar arasında qardaşlıq münasibətlərinin ifadəsi kimi. Poemada realizm, yumor.

4. Evə tapşırıq: "Müasir ədəbiyyat" kitabından səh.219-221 öyrənməli. Kitabdakı təhlil əsasında əsəri bir də oxumalı.

### 1949-cu il sentyabrın 17-də Mürsəl Səfərovun (Bakı, Çaparidze rayonu, 199 nömrəli məktəb) IV sinifdə coğrafiyadan keçdiyi dərsin planı

***Mövzu:*** "Okeanlar".

***Məqsəd:*** yarımkürələr xəritəsində şagirdlərin okeanları göstərə bilməsinə nail olmaq.

***Təchizat:*** yarımkürələr xəritəsi, kontur xəritələr və qlobus.

***Dərsin gedişi:***

1. Keçilmiş dərsi yoxlamaq: Şagird Kərim Cabbarov və Ramiz Hüseynova "Yarımkürələr xəritəsi və dünya qitələri" mövzusunu nağıl etdirmək və qiymət vermək. Ayrı-ayrı şagirdlərin xəritədə və qlobusda yarımkürələr və qitələri göstərməsi.

2. Keçmiş dərslə yeni dərs arasında əlaqə: Dünyanın quru hissəsi qitələrə bölündüyü kimi, su hisəsi də okeanlara bölünmüşdür.

3. Yeni dərsin izahı: Müəllim yarımkürələr xəritəsində göstərə-göstərə okeanların tutduğu mövqeyi, onların sərhədlərini və dərinliyini izah edir.

4. Yeni dərsin möhkəmləndirilməsi: a) müəllimin çağırışı üzrə şagirdlər xəritədə okeanların hansı qitə arasında yerləşməsini və adlarını deyə-deyə xəritədə və qlobusda göstərirlər; b) şagirdlər öz kontur xəritələrində okeanların adlarını yazırlar.

5. Evə tapşırıq: Coğrafiya kitabının 11-ci səhifəsində olan suallara cavab hazırlamaq və çalışmaları yerinə yetirmək (çalışmaların həlli bir nümunədə izah edilir).

### IX sinifdə tarixdən bir dərsin planı

***Mövzu:*** XVIII əsrin əvvəllərində Rusiyada maarif və mədəniyyət.

***Məqsəd:*** Pyotr islahatlarının sinfi mahiyyəti və tərəqqipərvər əhəmiyyəti haqqında anlayış vermək.

***Dərsin gedişi:***

1. Köhnə dərsin soruşulması: "Dövləti idarə etməkdə islahat" (şagird K.S.M.R.-dan soruşulmalı). Suallar:

a) Pyotrun dövlət islahatı aparmasının səbəbi.

b) Senat və kollegiyanın yaranması və vəzifələri.

v) hərbi islahat.

q) islahatların sinfi mahiyyəti.

2. Yeni dərsin – "XVIII əsrin əvvəllərində maarif və mədəniyyət" mövzusunun müəllim tərəfindən aşağıdakı plan üzrə izahı.

a) iqtisadi inkişafın mədəni yüksəliş üçün ehtiyac doğurması

b) mülki əlifba və təqvimin tətbiqi

q) məişətdə dəyişiklik

d) Peterburqun təsisi

e) Pyotr islahatının əleyhdarları və Pyotrun onlarla mübarizəsi

j) islahatın dvoryan mahiyyəti

3. Yeni dərsin möhkəmləndirilməsi üçün qısa sual-cavab:

a) Pyotrun mədəniyyət sahəsindəki islahatlarını sadalayın.

b) Bu islahatların dvoryan sinfinə xidmət etdiyini nə ilə göstərmək olar.

v) Rusiyanın inkişafı və tərəqqisi üçün Pyotrun islahatlarının nə kimi əhəmiyyəti vardır?

4. Evə tapşırıq: 1) kitabdan 36-41-ci səhifələri nəqlən öyrənmək. 2) “I Pyotr və onun islahatı” mövzusunu təkrar edib gələn dərsi üçün hazır olmaq (səh.3-41).

Bizim burada təklif etdiyimiz və nümunəsini verdiyimiz dərs planı bəzi müəllimlərə təfsilatlı görünə bilər. Lakin məqalənin əvvəlində qeyd etdiyimiz dərs planının yazılmasından güdülən məqsədlər nəzərdə tutulsa, bu təfsilat heç də əhəmiyyətsiz sayılmamalıdır. Çünki planın belə tərtib edilməsi müəllimi qarşıdakı dərsə yaxşı hazırlaşmağa məcbur edir. O, belə planı yazmaq üçün dərsin materialını yaxşı nəzərdən keçirməli, tərbiyə və təhsil məqsədlərini aydınlaşdırmalı, dərsdə tətbiq edəcəyi üsul və tərzlər üzərində düşünməli, dərsin hər bir mərhələsinin məzmununu müəyyən etməli və ümumiyyətlə, gələcək dərs haqqında ətraflı düşünməlidir. Dərs planını tərtib etmək əsas məqsəd də budur. Belə dərs planlarının tərtibi müəllimlərə işlədiyi sahədə lazımi təcrübə toplamaq üçün imkan verdiyi kimi, onun işinə nəzarət etmək və yardım göstərmək üçün məktəb rəhbərlərinə və müfəttişlərə də əlverişli material verir. Plan dərsin məzmununu və tətbiq edilən üsulları nə qədər aydın əks etdirmiş olsa, bu məqsəd də bir o qədər asanlıqla əldə edilə bilər.

Müəllim dərsin planını 2-3 gün qabaq tərtib etməli və bilavasitə həmin dərsdən qabaqkı dərsi dedikdən sonra bu planı, bəzi dəyişikliklər etmək nöteyi-nəzərindən bir daha nəzərdən keçirməlidir. Çünki bəzi hallarda bundan qabaqkı dərsdə gözlənilməyən bir səbəbdən bəzi kəsirlər qalır. Hərgah keçən dərsdə belə kəsir olmuşsa, bu, növbəti dərsin məzmunu və quruluşunda, o cümlədən onun planında əks etməyə bilməz.

Nəhayət, hər bir müəllim dərsi dedikdən sonra həmin dərs üçün tərtib etdiyi planı bir də nəzərdən keçirib dərsin nə dərəcədə planla düzgün getmiş olduğunu yoxlamalıdır. Bu vasitə ilə müəllim bir tərəfdən özünün necə dərs deməsini yoxlayır, o biri tərəfdən də planın nə dərəcədə düzgün tərtib edilmiş olduğunu öyrənir.

Müəllimin dərsə hərtərəfli və ciddi hazırlaşması başlıca olaraq elmlərin əsaslarını şagirdlərə mənimsətməyin, hər hansı bir dərsin nəzəri-məfkurə dolğunluğunu, onun real həyatla sıx rabitədə tədris edilməsini təmin etməlidir.